# Kazus

Ərizəçi A-nın həyat yoldaşı B 8 aylıq hamilə olub. 21 dekabrda onun qarın nahiyəsində kəskin ağrılar olub və A onu K xəstəxanasına aparıb. K xəstəxanasında B-ni həkim deyil, mamaça müayinə edir və heç bir problemin olmadığını bildirir. A onunla razılaşmayaq B-ni digər tibb müəssisəsinə gətirir. Burada da, onu tibb bacısı müayinə edir. A həkim müayinəsi tələb etsə də, növbədəki həkimlərin məşğul olduğu bildirilir. A B-ni üçüncü xəstəxanaya gətirir. Burada onu həkim-uroloq müayinə edir, ciddi narahatlığın olmadığını bildirir. A B-ni evə gətirir. Lakin, həmin gecə B-nin ağrılarının azalmadığını görüb, onu özəl tibb müəssisələrindən birinə gətirir. Nəhayət, burada onu həkim-ginekoloq ultrasəs müayinə edir və məlum olur ki, uşaq ölüb.

Ərizəçiyə arvadının təcili əməliyyat olunmalı olması bildirilir və bunun üçün ondan tibb müəssisənin hesabına depozit qoyması tələb edilir. Lakin, Ərizəçi o qədər pul ödəməkdən imtina edir. Müəssisə bu vəziyyətdə xəstəyə tibbi müdaxilə edə bilməyəcəyini bildirir və onlara dövlət tibb müəssisələrinə müraciət etmələri məsləhət görülür. Müəssisə onlara təcili tibbi yardım maşını verir və onları özəl tibb müəssisəsinə göndərir. Həmin maşınla Ərizəçinin həyat yoldaşı həkim müşayiəti olmadan aparılır. Özəl tibb müəssisəsinə çatmağa çox az məsafə qalmış B vəfat edir.

Ərizəçinin şikayəti əsasında araşdırma bağlayır, 3 illik ibtidai araşdırmadan sonra cinayət işi açılır, mamaçalar Ərizəçinin tələbinə baxmayaraq ginekoloq olmadan tibbi rəy verməklə ölümdə 2/8 hissə, uroloq həkim öz sahəsinə aid olmayan xəstəni müayinə edərək səhv tibbi rəy verdiyi üçün 3/8 hissə, özəl müəssisənin həkimi isə təcili tibbi müdaxilə tələb edildiyi halda və xəstənin durumu buna icazə vermədiyi halda, maddi vəziyyətə görə yardım göstərməkdən imtina etdiyinə və başqa müəssisəyə tibbi nəzarət olmadan daşınmasına göstəriş verdiyinə görə 4/8 hissədə təqsirli bilinərək, hər birinə 2 il müddətinə azadlıqdan məhrum etmə cəzası və cərimə cəzası verdi. Sonradan mamaçaların işi ayrıldı və ayı icraatda davam etdirildi. Həmin iş həkimlərin işinə münasibətdə ləngidi və müddətin keçməsi ilə əlaqədar onlar məsuliyyətdən azad olundular. Həkimlərin hökmünün icrası isə qeyri-müəyyən müddətə təxirə salındı. Ərizəçinin ona 60000 dollar kompensasiya ödənilməsi ilə bağlı iddiası təmin olunmadı.

Sual:
1) 2-ci maddənin maddi və prosessual aspektdən pozuntusu varmı?

2) Dövlət insan ölümünə səbəb olmuş özəl tibb müəssisənin fəaliyyətinə görə birbaşa məsuliyyət daşıyırmı?

*Hazırladı: Sadiq Bağırov*